# Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının inkişafının xüsusiyyətləri (tütünçülik timsalında)

**Tanrıverdiyev Qalib Əziz oğlu,**
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin dosenti, i.f.d
qalib.atanriverdiyev@taxes.gov.az
+994553818128
**Bəylərov Emin Arif oğlu,**
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin baş müəllimi,
emin.baylarov@taxes.gov.az
+994505772222

**Xülasə**

Azərbaycanda sosial-iqtisadi inkişafın əsas vəzifələrdən biri də iqtisadiyyatın diversifikasıyası ilə bağlı qeyri-neft sektorunun inkişafı və onun ixrac potensialının gücləndirilməsidir. Həmin sektorun inkişafı bir tərəfdən ixrac potensialının inkişafına təsir göstərir, digər tərəfdən isə yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə, iqtisadiyyatın davamlı inkişafına və vergi daxilolmalarının artımına şərait yaradır.

**Summary**

One of the main tasks of socio-economic development in Azerbaijan is the development of the non-oil sector and strengthening its export potential in connection with the diversification of the economy. The development of this sector, on the one hand, affects the development of export potential, on the other hand, creates conditions for the creation of new jobs, improving living standards, sustainable economic development and increasing tax revenues.

**Аннотация**

Одной из основных задач социально-экономического развития Азербайджана является развитие ненефтяного сектора и усиление его экспортного потенциала в связи с диверсификацией экономики. Развитие этого сектора, с одной стороны, влияет на развитие экспортного потенциала, с другой стороны, создает условия для создания новых рабочих мест, повышения уровня жизни, устойчивого развития экономики и увеличения налоговых поступлений.

**Aşar sözlər:** iqtisadiyyat, qeri-neft sektoru, tütün, tütünçülük, vergi

Son zamanlar dünya iqtisadiyyatında baş verən proseslər, inflasiyyanın gücləndirilməsi meyilləri hər bir ölkənin qeyri-neft sektorunun inkişaf potensialının gücləndirilməsi sahəsində mahiyət etibarı ilə çətin, prinsip etibarı ilə isə yeni və praktikada əvvələr müşahidə olunmayan yeni vəzifələrin həlli zərurətini meydana çıxarır. Bu gün qloballaşan dünya iqtisadiyyatında xüsusilə də ərzaq məhsullarının, gündəlik tələbat mallarının qiymətini kəskin şəkildə artması müşahidə edilir. Bu proseslərə, şübhəsiz ki, obyektiv xarakter daşıyan iqtisadi amillərlə yanaşı, dünyada baş verən geosiayasi münaqişələr və muharibələr də təsir göstərir. Digər tərəfdən isə, dünyada müşahidə olunan qlobal istiləşmə, iqlim dəyişiklikləri istər-istəməz karbohidrogen ehtiyatlarına səmərəli istifadə edilməsini müəsir dünya iqtisadiyyatının imperativlərinə çevrilir. Bu isə öz növbəsində, hər bir ölkənin qeyri-neft sektorunun müasir tələblər səviyyəsində inkişafını tələb edir.

Son zamanlar, Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində uğurlu naliyyətlər əldə edilmişdir. Bu nəticələr, bir tərəfdən qeyri-neft sektorunun ixrac potensialının, digər tərəfdən isə qeyri-neft sektoru üzrə vergi daxilolmalarını əhəmiyyətli dərəcədə artırılmışdır.

Belə ki, 2021-ci ildə vergi daxilolmaları əvvəlki illə nisəbətən 15,5 faiz artaraq 8.5 mlrd. manat təşkil etmişdir. 2021-ci ildə vergi proqnozlarının icrası 117,7 faiz təşkil etmişdir. Qeyri-neft sektoru üzrə vergi daxilolmaları 6,4 mlrd azn təşkil edərək əvvəlki illə müqayisədə 13,5 faiz artmışdır. Qeyri-neft sektoru üzrə proqnozların icrası 112,2 faiz təşkil etmişdir. Çox sevindirici məqamlardan biri ondan ibarətdir ki, özəl sektordan vergi daxilolmaları 6,4 mlrd təşkil edərək əvvəlki illə müqayisədə 24 faiz artmışdır. Göründüyü kimi, ösəl sektordan vergi daxilolmaları bütün vergi gəlirlərinin 81 faizini təşkil etmişdir. Bütün bu göstəricilər həyata keçirilən uğurlu iqtisadi islahatların nəticəsi olmuşdur. Vergi daxilolmalarının artması bir tərəfdən büdcə gəlirlərinin formalaşmasına, digər tərəfdən isə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə birbaşa təsir göstərir.

Azərbaycanda sosial-iqtisadi inkişafın müasir mərhələsində əsas vəzifələrdən biri də iqtisadiyyatın diversifikasıyası ilə bağlı qeyri-neft sektorunun inkişafı və onun ixrac potensialının gücləndirilməsindən ibarətdir. Qeyri-neft sektorunun inkişafı bir tərəfdən respublikanın ixrac potensialının inkişafına təsir göstərir, digər tərəfdən isə əmək tutumlu sahələr olduğuna görə yeni iş yerlərinin açılmasına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaradır.

Azərbaycanda əhalinin məşğulluq sektoru ilə bölgüsündə kənd təsərrüfatı xüsusi rol oynayır. Kənd təsərrüfatı sahələri arasında qeyri-neft sektorunun və emal sənayesinin  inkişafında tütünçülüyün inkişafı mühüm əhəmiyyətə malikdir. 2020-ci ildə baş vermiş pandemiya nəticəsində dünyanın

demək olar ki, bütün ölkələrində və o cümlədən, Azərbaycan Respublikasında da iqtisadi göstəricilərdə azalma trendləri müşahidə edilmişdir.

Hal-hazırda Azərbaycanda kənd təsərrüfatının inkişaf dinamikası yüksək olduğuna görə bu sahədə emal sənayesinin inkişafı və sonradan emal edilmiş məhsulların ixracı xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, tütünçülük sahəsinin mövcud vəziyyətinin təhlili və onun əsasında təkliflərin verilməsi vacib məsələlərdən biridir. Bir faktı da xüsusilə də qeyd etmək lazımdır ki, uzun illər, o cümlədən, Azərbaycanın Sovetlər Birliyi tərkibində mövcud olduğu dövrdə də, tütünçülik ənənəvi olaraq əhalinin (kənd əhalisinin) gəlirlərini formalaşmasında xüsusi rol oynamışdır. Lakin, Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi illərdə iqtisadi əlaqələrin qırılması və digər obyektiv sosial-iqtisadi amilləri və bəzi hallarda subyektiv faktorların təsiri altında bu sahə inkişafdan geri qalmışdır.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı qeyri-neft sektorunun preoritet inkişaf istiqamətləri nəzərə alınmaqla ən mühüm sahələrdən biridir. Ənənəvi olaraq kənd təsərrüfatı məhsulları içərisində tütünçülük və onunla bağlı emal olunan məhsullar xüsusi əhəmiyyət kəsb etmişdir. Belə ki, Qrafik 1-dən göründüyü kimi, son 20 il ərzində, Azərbaycanda tütünün əkin sahəsi 8.2 ha 3.14 ha qədər azalmaqla bu azalma tempi təqribən 2.5 dəfə təşkil etmişdir.

**Qrafik 1. Azərbaycanda tütünün əkin sahəsi, min ha**




*Mənbə: Dövlət Statistika Komitəsi*

Bununla belə, əkin sahələrinin azalmasının əsas səbəblərindən istehsal olunan məhsullarının dünya bazarında rəqabət qabiliyyətinin aşağı olması ilə bağlı olmasına baxmayaraq, son 5 ildə əkin sahələri 2.3 dəfə artmışdır.

Son illərdə əkin sahələrinin artımında müşahidə olunan artım templəri bu sahəyə dövlət tərəfindən həyata keçirilən Proqramlarla bağlı olmuşdur.

Bununla belə, 2017-2020-ci illər ərzində əkin sahələrinin həcmində belə böyük bir dəyişiklik müşahidə edilməmişdir.

Eyni zamanda, Diaqram 2-də tütün sahələrinin rayonlar üzrə bölgüsü göstərilmişdir. Belə ki,  2020-ci ildə cəmi tütün əkinlərinin 35.2%-i Şəki, 18.3%-i Zaqatala, 15.8%-i Qax, 13.5%-i Balakən, 8.6%-i Oğuz, 8.7%-i isə digər rayonların payına düşmüşdür (Diaqram 2).

**Diaqram 2. Tütünün rayonlar üzrə əkin sahəsi, ha**




*Mənbə: Dövlət Statistika Komitəsi*

Diaqram 2-dən göründüyü kimi, tütün sahələrinin bölgüsündə Şəki rayonu xüsusi yer tutmuşdur. Bununla belə, 2-ci yerdə mövqə almış Zaqatala rayon üzrə əkin sahələrinin həcmi Şəki rayondan iki dəfə aşağı olmuşdur. Eyni zamanda, Qax, Balakən və Oğuz rayonlarında da tütünçülüklə bağlı əkin sahələri mövcud olmuşdur.

Hal-hazırda Azərbaycanda tütün məhsullarının istehsalı və idxalı aksiz vergisinə cəlb olunmuşdur. Yalnız 2021-ci ildə tütün məmulatlarının istehsalı və idxalından əldə edilən aksiz məbləğləri 396 mln. manat təşkil etmiş, bu isə aksizlərdən daxil olan vergi gəlirlərinin 42%-ni, ümümi vergi daxilolmalarında isə 4%-ni təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, vergi ödəyicilərinin böyük əksəriyyətini təşkil edən sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən ödənilən sadələşdirilmiş verginin məbləği 295 mln. manat olmuş və bu isə ümümi vergi daxilolmalarında isə 3%-ni təşkil etmişdir.

Bu müqayisələr sübut edir ki, dövlət büdcəsinin əsas gəlir mənbəyi hesab olunan vergi daxilolmalarının artmasında da tütünçülük inkişafı xüsusi önəm daşıyır.